# *Yasamal rayonu:* 2015-ci ildə qarşıya qoyulan vəzifələr uğurla icra olunub

***2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş tədbirdə hesabat məruzəsi ilə çıxış edən Yasamal Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mehdiyev diqqətə çatdırmışdır ki, son zamanlar dünyanı maliyyə-iqtisadi böhran bürüsə də, Azərbaycan öz dinamik inkişafını davam etdirmiş, iqtisadi qüdrətini artırmış, əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində nəzərdə tutulmuş proqramların icrasında problem olmamışdır.***






Bunu yanvarın 10-da Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda səslənən fikirlər də təsdiqlədi. Neftin qiymətinin 3-4 dəfə aşağı düşməsinə baxmayayarq, ötən il respublikamızda ümumi daxili məhsul 1 faizdən çox, sənaye istehsalı 2,4 faiz, qeyri-neft sektoru 8,4 faiz artmışdır.

Qlobal maliyyə-iqtisadi böhran dönəmində Yasamal rayonunda bütün sahələr üzrə inkişaf özünü büruzə vermişdir. Bu barədə məlumat verən İ.Mehdiyev qeyd etmişdir ki, sənaye məhsulunun ümumi həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 100,1 faiz, nəqliyyat sektorunda xidmətlər 111 faiz, rabitə xidmətlərində artm 102 faiz təşkil edərək, müvafiq olaraq 92 milyon, 1 milyard 700 milyon və 600 milyon manat olmuşdur. Pərakəndə əmtəə dövriyyəsinin isə 1 milyard 860 milyon manat təşkil edərək, 113,3 faiz artdığı diqqətə çatdırıldı. Başçı qeyd etdi ki, əsas kapitala yönəldilən investisiyalar 765 milyon, əhaliyə göstərilən pullu xidmətlər 616 milyon manat təşkil etmişdir. Bir işçiyə hesablanmış orta aylıq əmək haqqı 592,8 manat olmuşdur.

Rayon sakinlərini daha çox narahat edən yeni iş yerlərinin yaradılması sahəsində də irəliləyiş müşahidə olunmuşdur. Ötən il 4831 yeni iş yerinin açılması da bunu təsdiqləyir. Bu qədər iş yerlərindən 1521-i yeni yaradılmış müəssisə və təşkilatlarda, 220-si mövcud və bərpa olunmuş müəssisələrdə, 3090-ı isə fiziki şəxslərdən ibarət olmuşdur.

Məruzəçi qeyd etmişdir ki, hesabat dövründə rayon ərazisində əvvəlki illərlə müqayisədə daha çox irimiqyaslı abadlıq və quruculuq işləri həyata keçirilmişdir. Onu da qeyd edək ki, Yasamal rayonu Bakı şəhərində ən böyük rayonlardan biridir. Buna baxmayaraq, rayonda aparılan abadlıq və yenidənqurma işləri, sözün əsl mənasında, digər rayonlara nümunədir. Son illər həyata keçirilən “Nümunəvi həyət” kampaniyası çərçivəsində demək olar ki, rayonun bütün ərazilərində abadlıq işləri aparılmış, yaşlı insanların istirahəti, uşaqların asudə vaxtlarının səmərəli keçirilməsi üçün hər cür şəraiti olan parklar, müxtəlif oyunlar üçün nəzərdə tutulmuş meydançalar, həmçinin digər istirahət zonaları tikilmişdir.

İ.Mehdiyev bildirmişdir ki, bayramların və əlamətdar günlərin Yasamal rayonunda təmtəraqlı keçirilməsi artıq ənənə halını alıb. “1941-1945-ci illər müharibəsində Qələbənin 70 illik yubileyi və yubileyin qeyd olunması üzrə Tədbirlər Planının təsdiq edilməsi haqqında” Prezident İlham Əliyevin 23 fevral 2015-ci il tarixli sərəncamından irəli gələn vəzifələrin icrası istiqamətində veteranlarla görüş keçirilmiş, onlara hədiyyələr verilmişdir. Müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibəti ilə Tədbirlər Planı təsdiq edilmiş və buna uyğun olaraq təntənəli tədbirlər keçirilmişdir.

“Bakı-2015” ilk Avropa Oyunlarının yüksək səviyyədə keçirilməsi üçün Yasamal rayon ziyalıları, ictimai-siyasi xadimlər, tələbələr, ümumiyyətlə, bu möhtəşəm tədbirin mütəşəkkilliyinə töhfə verəcək hər bir sakin yaxından iştirak etmişdir. Bununla əlaqədar rayonda görüləcək abadlıq işlərinin həcmi xeyli artırılmış və qarşıya qoyulan vəzifələr uğurla icra olunmuşdur. İ.Mehdiyev demişdir ki, rayonumuzda bu beynəlxalq əhəmiyyətli tədbirin yalnız marşrut hissəsinə düşən 7 min metrdən çox hissəsində bina və qurğuların fasad hissələrinə üzlüklər vurulmuş, dam örtükləri yenidən qurulmuş, digər hissələrdə isə işıqlandırma sistemi ilə təchiz olunan 4 metr hündürlükdə dekorativ hasarlar quraşdırılmışdır. Nəzərdə tutulmuş digər abadlıq və yenidənqurma işləri də layiqincə başa çatdırılmışdır. Həmin mötəbər yarışlarda qazanılan qızıl medallardan ikisinin Yasamal rayon sakinlərinin – taekvandoçu Ayxan Tağızadə və yunan-Roma güləşçisi Elvin Mürsəliyevin payına düşdüyünü diqqətə çatdıran İ.Mehdiyev bunu yüksək qiymətləndirmişdir.

“2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqisadi inkişafına dair Dövlət Proqramı”nda Yasamal rayonu üçün nəzərdə tutulan tikinti və abadlıq işlərindən söhbət açan İ.Mehdiyev demişdir ki, proqramda nəzərdə tutulan 17 tədbirin 7 bəndi hazırda icra olunur. Digərlərinin isə vaxtında təhvil verimməsi üçün hər cür şərait yaradılıb.

Hesabat dövründə qarşıda duran əsas vəzifələrdən birinin “Sovetski” adlandırılan ərazidə söküntü işlərinin olduğunu deyən İ.Mehdiyev bildirmişdir ki, hazırda sakinlərlə aparılan söhbətlər öz bəhrəsini vermiş və bu sahədəki problemlər aradan qaldırılmaq üzrədir. Qeyd edilmişdir ki, sökülmüş ərazilərdə yeni park salınmış, müasir tələblərə cavab verən yollar çəkilmiş və yol kənarına çoxlu sayda dekorativ ağaclar əkilmişdir.

Əhalinin sosial problemlərinin həlli istiqamətində tədbirlərin həyata keçirilməsi ilə bağlı ölkə rəhbərliyi tərəfindən verilmiş tapşırıqlar və bu sahədə yaranmış problemlərin həlli daim rayon icra hakimiyyətinin diqqət mərkəzində olmuş və bu sahədə mövcud olan problemlər, demək olar ki, öz həllini tapmışdır. İ.Mehdiyev qeyd etmişdir ki, sakinlərin həkim müayinəsindən keçməsi, ünvanlı sosial müavinətlə təmin olunması, şəhid ailələri və müharubə veteranlarının həyat tərzinin yüksəldilməsi, onların sosial müdafiəsinin gücləndirilməsi daim diqqət mərkəzində saxlanılmışdır.

Natiq vətəndaşların ərizə və müraciətlərinin daim diqqət mərkəzində saxlanıldığını və bu işlərin icra hakimiyyətinin prioritet vəzifəsi olduğunu bildirmiş, həmçinin qeyd etmişdir ki, səyyar qəbullar zamanı qaldırılmış problemlər yerindəcə həll edilmişdir. Qeyd olunmuşdur ki, 2015-ci ildə rayon icra hakimiyyəti başçısının aparatına vətəndaşlardan 3695 müraciət daxil olmuşdur ki, bu da 2014-cü ildəkindən 636 ədəd və ya təqribən 15 faiz azdır. Diqqətə çatdırılmışdır ki, 2015-ci ildə rayon icra hakimiyyəti başçısının aparatda keçirilən qəbullarında 337 nəfər, səyyar qəbul-görüşlərdə isə 281 nəfər iştirak etmişdir.

Çıxış edənlər ötən il müəyyən problemlərin yaranmasına baxmayaraq, həm respublikamızda, həm də Yasamal rayonunda iqtisadi inkişafın öz tempini qoruyub saxlamasını və nəzərdə tutulan proqramların uğurlu icrasını yüksək qiymətləndirmişlər.

Prezident Administrasiyasının məsul işçisi Tağı Tağıyev dünyada baş verən böhranın ölkəmizə, həmçinin Yasamal rayonuna ciddi təsir etməməsini dövlət başçısının düşünülmüş siyasi strategiyası ilə əlaqələndirmişdir.

Sonda yığıncaq iştirakçıları adından Prezident İlham Əliyevə müraciət qəbul olunmuşdur.

***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***